## Komissiyanın ilk iclası keçirilmişdir

Məlum olduğu kimi, ölkə başçısı martın 14-də keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının ölkə vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında fərman imzalamışdır. Həmin fərmanda birdəfəlik ödəmələrin verilməsi zamanı yaranmış mübahisəli məsələlərə baxılması və bu işlərə ümumi nəzarətin həyata keçirilməsi məqsədilə Maliyyə Nazirliyinin nəzdində aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə Xüsusi Komissiyanın yaradılması tapşırılmışdır. Fərmana uyğun olaraq, Maliyyə Nazirliyinin nəzdində Xüsusi Komissiya yaradılmışdır. Məlum olduğu kimi, əmanət kitabçasında olan məlumatların bankda olan sənədlərdəki məlumatlarla tutuşdurulması zamanı uyğunsuzluq aşkar edildikdə əmanətçi tərəfindən Xüsusi Komissiyaya rəsmi qaydada məktubla müraciət edilə bilər. Əmanət kitabçası itirildikdə və ya təqdim olunmaq üçün yararsız vəziyyətə düşdükdə, əmanətçinin verdiyi məlumatlar üzrə bankda aparılmış tutuşdurma nəticəsində həmin məlumatlar təsdiqini taparsa, əmanətçiyə əmanət kitabçasını əvəz edən sənəd verilməsi üçün bank tərəfindən Komissiyaya müraciət edilir və bu barədə bank tərəfindən 10 iş günündən gec olmayaraq əmanətçiyə yazılı məlumat verilir. Bank və əmanətçi Xüsusi Komissiyaya məktubla müraciət edərkən, məktuba birdəfəlik ödəmənin alınması üçün istinad etdiyi sənədləri əlavə etməlidir.

Xüsusi Komissiya səlahiyyətlərinə aid olan məsələlərə dair qərarları iclaslarında qəbul edir və daxil olmuş müraciətləri ən gec 10 iş günü ərzində araşdırmalıdır. Xüsusi araşdırma tələb olunan suallar yarandıqda Xüsusi Komissiya müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb edir, müvafiq dövlət orqanlarına sorğu verir və təqdim olunmuş sənədləri rəy verilməsi üçün aidiyyəti dövlət orqanlarına göndərir. Müstəqil ekspertləri və mütəxəssisləri cəlb etmək, aidiyyəti dövlət orqanlarından rəy almaq, əlavə sənədlər tələb etmək, yaxud başqa tədbirlər görmək lazım gəldiyi hallarda araşdırmanın müddəti daha 10 gün uzadıla bilər. Xüsusi Komissiyanın birdəfəlik ödəmənin verilməsinə dair qəbul etdiyi qərarlar bank üçün məcburidir.

Əmanətçilərə fərdi birdəfəlik ödəmələrin verilməsi zamanı yaranmış mübahisəli məsələlərə baxılması, müvafiq qərarların qəbul edilməsi və bu işlərə ümumi nəzarətin həyata keçirilməsi məqsədilə aprel ayının 25-də Xüsusi Komissiyanın ilk iclası keçirilib. Maliyyə Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, maliyyə naziri Samir Şərifovun da qatıldığı iclasda qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək üçün bütün işlərin vaxtında həyata keçirildiyi, 1 iyun 2012-ci il tarixdən fərdi birdəfəlik ödəmələrin verilməsinə başlanılacağı və bununla bağlı əhali arasında geniş maarifləndirmə işlərinin aparıldığı qeyd olunmuşdur.

Əmanətlərin qaytarılması sahəsində ən kiçik məlumatlar da vətəndaşların diqqət mərkəzində olduğundan, qəzetimizin növbəti saylarında bu sahədə yenilənən digər məlumatlara da toxunacağıq.

Aytən NƏBİYEVA